Şapur Qasimi

# Turan hansı əsaslar üzərində qurulmalıdır?

***Bu gün bir çoxları Türk Dövlətləri birliyinin, yaxud vahid Turan dövlətinin islam birliyi və ya türk-islam birliyi əsasında təşkil edilərək, Türk-İslam xəlifəliyinin yaradılmalı olduğunu mətbuatda israrla təbliğ edirlər.***

***Türk-islam birliyi nə deməkdir? Əgər söhbət türk dövlətləri ilə islam dövlətlərinin ayrı-ayrılıqda dövlət olaraq mövcud olub siyasi, iqtisadi, hərbi və s. birliyindən və ya Avropa birliyi tipli birliyindən söhbət gedirsə bu dövlətlərin hər hansı birliyinin qurulması üçün əsas olan ümumi maraqlar mövcud olmalıdır.***

Hər bir dövlət islam dövləti olmadan əvvəl, hər hansı bir milli dövlətdir. Yəni hər bir insanın milli mənsubluğunu, onun rəsmən qəbul etdiyi dil müəyyən etdiyi kimi, hər bir dövlətin rəsmi dili bu dövlətin hansı milli dövlət olduğunu sübut edən yeganə, əsas və həlledici amildir. Məsələn İran fars milli dövləti, ərəb dövlətləri ərəb milli dövlətləri, türk dövlətləri türk milli dövlətləridir və s. Fərz edək ki, Azərbaycan, İran və ya Səudiyyə Ərəbistanı ilə islam dini əsasında vahid dövlət qurur. Yeni yaranan dövlətin dövlət dilinin fars və ya ərəb dili olması bizim milli mənliyimizi, milli dövlətimizi itirməyimiz deməkdir. Buna biz razı ola bilmərik. Türk dilinin ümumi dövlət dili olmasına da onlar razı olmayacaq. Bu dövlətlərin hamısı, ümumiyyətlə isə bütün dövlət və millətlər üçün bütün maraqların içərisində milli maraqlar əsas və həlledici maraqdır. Dini maraqlar isə bütün hallarda bu milli maraqları reallaşdırmaq üçün ancaq və ancaq bir vasitədir. Türk dövlətləri hər hansı bir islam birliyinə daxil olmaq üçün ən əvvəl, bu türk dövlətləri vahid türk dövləti, ən azı isə federativ türk dövləti halında birləşməlidir. Əks halda, parçalanmış halda hər hansı bir islam birliyinə daxil olan türk dövlətləri ərəb, fars və s. milli maraqlarına xidmət edən vasitəyə çevrilərək, öz milli maraqlarını, milli mənliyini itirib yad dövlətlərin əsarətinə düşmüş olacaqlar. Bu gün Azərbaycan və ya Türkiyə islam dini maraqları əsasında İran və ya Səudiyyə Ərəbistanı ilə islam birliyində necə birləşə bilər? ***İranla, Səudiyyə Ərəbistanı ilə hər hansı türk dövlətinin islam birliyi ancaq türk, fars, ərəb milli maraqlarının üst-üstə düşdüyü hallarda ola bilər ki, bu da təsadüflərin qurultayı kimi ancaq qısa bir zaman kəsimi və eyni zamanda çox lokal, dar çərçivəli təsadüfi bir problemin həllinin zərurətindən yaranan, müvəqqəti bir durum, ittifaq ola bilər. Bunu islamın baniləri olan ərəb ölkələrinin, islamın şiə cərəyanını özəlləşdirib öz milli maraqlarını reallaşdırmaq üçün bir vasitəyə çevirmiş İranın şovinist fars molla rejiminin öz milli maraqları xatirinə nəinki türk dövlətlərinə, eləcə də islam dövləti olan Pakistana qarşı düşmənçilik edə bilmək üçün, bütün tarix boyu müsəlman millətlərinə qarşı soyqırımı törətmiş, onların torpaqlarını işğal edərək bu gün də əsarətdə saxlayan xristian dövlətləri ilə eyni birliklərə daxil olub, yaxın müttəfiqlik münasibətləri quraraq, başqa müsəlmanlara qarşı vuruşmalarında görmək olur.*** Son 30 ildə Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı müharibəni daim dəstəkləyən İran dövləti bu günlərdə Azərbaycanın Ermənistan üzərində qələbə çalmasından, Naxçıvan bölgəsi ilə qalan türk dünyasına dəhliz açıldıqdan sonra Qarabağın yenidən qurulması prosesində «yağlı tikə» qopararaq İran daxilində apardıqlarıTÜRK DÜŞMƏNÇİLİYİ siyasətini bilavasitə Azərbaycanın müstəqil hissəsinin ərazisinə keçirməklə yanaşı, Qarabağda erməni-rus-fars triosunun Azərbaycan və Türkiyəyə qarşı düşmənçilik fəaliyyətini daha da gücləndirmək niyyətindədir. Bu günlərdə Moskvada Lavrov-Kələntəryanla görüşdən qayıdan İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin müsahibəsinin hətta kiçik bir hissəsini İranda öz milli ərazilərində yaşayan Cənubi Azərbaycan türklərinə, Türkmənistan türklərinə qarşı fars dövlətinin real münasibətlərini, bütün istiqamətlərdə həyata keçirdikləri, əsaslı düşmənçiliyinə nəzər saldıqda İran dövlətinin Qarabağdakı niyyətləri çox aydın görünür. Məhəmməd Cavad Zərif deyir ki, – «Ümidvaram ki, o biri ölkələrə səfərimiz zamanı da (Azərbaycan və Türkiyəni nəzərdə tutur – müəllif) bu cür münasibətlə qarşılaşacaq, gələcəkdə reqionda qarşılıqlı fəaliyyət sisteminə doğru irəliləyərək, əməkdaşlıq üçün, daha yaxşı gələcək qurulması üçün, yaranmış imkanlardan istifadə edəcəyik... Fikrimcə bu gün Qarabağda firavanlıq, əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün, xüsusilə iqtisdai və nəqliyyat layihələri üçün əlverişli şərait yaranıb. Beləliklə biz xalqların əziyyətini azalda, tarixi fikir ayrılıqlarını aradan qaldıra, insanların həyatını qoruyub saxlaya bilərik. Bunun üçün zəmin hazırlanıb». (Axar.az. 26.01.2021). Cavad Zərifin fars dilində dediyi bu sözlərini reallıqda İran dövlətinin hansı məqsədləri təqib etdiyini və bu sözlərin normal adam dilinə tərcüməsini dərk etmək üçün aşağıdakı faktlara nəzər salaq.

Birincisi, 45 milyon Azərbaycan türkü, 5 milyondan da çox Türkmənistan türkləri, əfşarlar, qaşqaylar və s. türklər İranda öz milli əraziləri ilə birlikdə İran dövlətinin tərkibindədir. Yəni, İran əhalisinin 60 faizini türk milləti təşkil edir.

***İranda ermənilərin sayı isə 150 min nəfərdən bir qədər artıqdır. Yəni ermənilər İran əhalisinin 0,55 faizini təşkil edir. İran əhalisinin 9 faizini kürdlər (5 milyon), qalan 30,55 faizini isə farslar, ərəblər, bəluclar, giləklər, aysorlar, gürcülər (bəharilər), tat, lorlar və s. milli azlıqlar təşkil edir. 9-10 milyon civarında sayı olan farsları erməni kimi ilana çevirib, İranın əhalisinin 60 faizini təşkil edən türklərin boğazına, 1925-ci ildən bəri rus-ingilis cütlüyü sarımışdır. Ermənilər İranda əsasən ölkənin paytaxtı Tehranda və sənaye mərkəzi olan İsfahanda məskunlaşmışlar.*** Farslar öz erməni qardaşlarına Tehrandakı Ararat klubunda hərbi nəzəriyyə öyrədir, Rubatkərimdə isə onlara hərbi hazırlıq keçir, Sərkis kilsəsində Türkiyə və Azərbaycana qarşı müxtəlif təxribat, terror və s. düşmənçilik proqramları hazırlayıb erməni kilsəsinin tabeliyində olan «QNÇAK», «Daşnaksütyun», «Armenikan», «Asala», «Orsi», «9 iyun», «Namezis» və digər dünyada geniş şəbəkələnmiş erməni terror təşkilatları, o cümlədən Ermənistan dövləti vasitəsilə həyata keçirilir. Bu bir daha Fransız alimi Baron de-Bayın, – «Eçmiadzin monastırı dini mərkəzdən çox, siyasi ixtişaşlar mərkəzidir», sözünə – «Həm də terror təşkilat mərkəzidir» sözünü əlavə etməklə ümumilikdə erməni kilsəsinin və fars şovinizminin qardaşlığının mahiyyətini xarakterizə etmək olar.

İranda farslar 150 min erməniyə 27 erməni məktəbi, erməni mədəniyyət evi, «Alik» gündəlik qəzeti, kilsəsi və s. açaraq onları İran büdcəsindən maliyyələşdirmək üçün hər il 2 milyon 200 min ABŞ dolları vəsait ayırır. Bu hələ fars dövlətinin ortada olan rəsmi məlumatı olub, İran dövlət yetkililərinin ermənilərə ayırdığı QARA KASSANI və vaxtilə İranda Şuraye Neqahbana (Konstitusiyaya Nəzarət Şurasına) rəhbərlik etmiş və İran Prezidenti olmuş Rəfsəncaninin başçılıq etdiyi, bu gün isə İranın şovinist fars molla elitasının birbaşa nəzarətində olub, Əfqanıstandan ABŞ-a, Avropaya, Rusiyaya, Türkiyəyə və s. ölkələrə erməni təşkilatları vasitəsilə daşınan narkotika, xüsusilə heroinalverindən ermənilərə verilən milyardlarla vəsaiti əks etdirmir. Bu faktlar demək olar ki, bütün Avropa ölkələrinin, ABŞ-ın, Rusiyanın xüsusi xidmət orqanlarına məlum olduğu halda ümumi məqsədlərinə cavab verdiyindən heç biri səsini belə çıxarmayaraq, buna hətta şərait yaradırlar.

Şovinist fars hakimiyyətinin Cənubi Azərbaycan və Türkmən torpaqlarında çox məkrli, siyasət yeritməsi ilk baxışda təbii proses kimi görünür. Lakin məsələnin mahiyyətinə diqqət yetirdikdə məlum olur ki, Zəncan, Həmədan vilayətlərində demək olar ki, yeganə, əsas istehsal sahəsi olan kənd təsərrüfatı, Təbrizdə yerli sənaye müəssisələri süni surətdə çökdürülür, Ərdəbil, Qəzvin vilayətlərində süni üsullarla ekoloji fəlakət şəraiti yaradılır, Savə vilayətində iqtisadiyyata kapital qoyuluşuna qadağa qoyulur, Urmu vilaytəində Urmu gölünün qurudulması nəticəsində torpaqlar kənd təsərrüfatına yararsız hala gətirilir. ***Bütün bunlarda məqsəd ilk növbədə türk əhalinin artım səviyyəsini kəskin surətdə aşağı salmaq, böyük bir hissəsini ehtiyac üzündən fars və digər milli azlıqların yaşadıqları bölgələrə köçməklə, onları hər zaman gəlmə statusunda pərakəndə halda yerləşməsilə milli azadlıq mübarizə imkanından məhrum etmək və boşalan torpaqlara isə rusların türk torpaqlarında erməni əkib-becərmək təcrübəsi kimi, kürdləri yerləşdirməsi vasitəsilə İranda türk milli azadlıq mübarizəsinə son qoymaq niyyətini güdür. Onlar təkcə bunlarla kifayətlənməyib bu məqsədlə başqa üsullara da əl atırlar.*** Məsələn, Urmu vilayətinin bir hissəsini Kürdüstana, Ərdəbil vilayətinin bir hissəsini Gilana, Zəncan vilayətinin bir çox torpaqlarını Tehran və İsfahana, Qəzvin vilayətinin bir hissəsini Tehran vilayətinə, Həmədan torpaqlarını Qum və Tehran vilayətlərinə birləşdirməklə, Rusiyanın Şimali Azərbaycandakı təcrübəsini Cənubi Azərbaycanda tətbiq etməklə, Azərbaycan türklərinin torpaqlarını ilhaq etməklə yanaşı özlərini də hissə-hissə parçalamaqla rahat assmilyasiyaya məruz qoyub İranda milli çoxluqdan, milli azlığa çevirmək məqsədini təqib edirlər.

Bu məkrli siyasətin bir üsulu da Cənubi Azərbaycan şəhərlərinin dövlət büdcəsindən maliyyələşməsi sistemidir. Bu sistemin də mahiyyətini başa düşmək üçün təkcə bir faktı göstərmək yetərlidir. 3 milyon əhalisi olan Təbriz şəhərinin büdcəsi, 300 min əhalisi olan Şiraz şəhərinin büdcəsindən YEDDİ DƏFƏ azdır! Bütün bu hallar İranda təkcə Cənubi Azərbaycan vilayətləri, şəhərləri, əhalisi ilə bitməyib İrandakı Türkmənistan torpaqları olan Sarı, Qorqan, Qonbəde Kavus vilayətləri və türkmənlərə qarşı da törədilir.

***82 milyon əhalisi olan İranın 60 faizini təşkil edən türk millətinin dilinin qadağan olunmasını pərdələmək üçün, dünya ictimaiyyətinin gözündən pərdə asmaqla fars şovinizminin bu cinayətindən beynəlxalq diqqəti yayındırmaq məqsədilə İranın prezidenti H.Ruhani 2016-cı ildə «Milli azlıqlar könüllülük əsasında ana dilində kürslar təşkil edə bilər» sərəncam-icazəsi imzalayıb.***

(ardı gələn sayımızda)




***İranla, Səudiyyə Ərəbistanı ilə hər hansı türk dövlətinin islam birliyi ancaq türk, fars, ərəb milli maraqlarının üst-üstə düşdüyü hallarda ola bilər ki, bu da təsadüflərin qurultayı kimi ancaq qısa bir zaman kəsimi və eyni zamanda çox lokal, dar çərçivəli təsadüfi bir problemin həllinin zərurətindən yaranan, müvəqqəti bir durum, ittifaq ola bilər. Bunu islamın baniləri olan ərəb ölkələrinin, islamın şiə cərəyanını özəlləşdirib öz milli maraqlarını reallaşdırmaq üçün bir vasitəyə çevirmiş İranın şovinist fars molla rejiminin öz milli maraqları xatirinə nəinki türk dövlətlərinə, eləcə də islam dövləti olan Pakistana qarşı düşmənçilik edə bilmək üçün, bütün tarix boyu müsəlman millətlərinə qarşı soyqırımı törətmiş, onların torpaqlarını işğal edərək bu gün də əsarətdə saxlayan xristian dövlətləri ilə eyni birliklərə daxil olub, yaxın müttəfiqlik münasibətləri quraraq, başqa müsəlmanlara qarşı vuruşmalarında görmək olur***